**Prezident İlham Əliyevin regionların sosial-iqtisadi inkişafına göstərdiyi diqqət və qayğı nəticəsində respublikamızda müasir infrastruktur, istehsal və emal müəssisələri yaradılır, yeni iş yerləri açılır. İlk növbədə, əhalinin sosial rifah halının daha da yaxşılaşdırılmasına yönəlmiş bu tədbirlər bir daha təsdiqləyir ki, dövlətimizin başçısının həyata keçirdiyi siyasətin mərkəzində Azərbaycan vətəndaşı, onun rifahının yüksəldilməsi dayanır.**



# Azərbaycan Beynəlxalq Əmək Təşkilatı üçün uğur nümunəsidir

Son vaxtlar bütün sahələrdə olduğu kimi, sosial-iqtisadi sferada aparılan əsaslı islahatlar Prezident İlham Əliyevin əhalinin güzəranının yaxşılaşdırılması istiqamətində reallaşdırılan tədbirlərin davamıdır. Danılmaz faktdır ki, Azərbaycanda sosial-iqtisadi sahədə həyata keçirilən islahatlar inqilabi xarakter alıb. Bu islahatlar, ilk növbədə, əhalinin rifahının yaxşılaşdırılmasına, vətəndaş məmnunluğuna yönəlib. **Dövlətimizin başçısı hələ 2018-ci ilin sonlarında bəyan etmişdi ki, qarşıdakı dövrdə əhalinin sosial durumunun daha da yaxşılaşdırılması prioritet istiqamət olacaq, 2019-cu il daha çox sosialyönümlü il kimi tarixə düşəcək. Bu məqsədlə də cari ilin əvvəllərində dövlətimizin başçısı iki böyük sosial islahat paketini təsdiqlədi. Birinci paketdə 3 milyon vətəndaşın maaş, pensiya, sosial müavinətlərinin artırılmasına, mühüm sosial məsələlərin həllinə 1,6 milyard manat yönəldildi və icra olundu. İkinci paketin icrası ilə bağlı hazırlıq işləri də tamamlandı və sentyabrın 1-dən minimum əməkhaqqı 250 manata çatdırıldı və əlavə olaraq 400 min nəfərin maaşı 20--50 faiz artırıldı.**

**Oktyabrın 1-dən isə pensiyaların artımı – minimum pensiyanın 200 manat həddində müəyyənləşdirilməsi 750 min nəfərə şamil olundu. Hər iki paketin ümumi məbləği cari il üçün 2,3 milyard manat, gələn il üçün isə daha 3 milyard manat təşkil edir. Bu iki sosial islahat paketi ümumilikdə 4,2 milyon vətəndaşı əhatə edir. Minimum pensiyanın il ərzində 72 faiz artırılması əhalinin büdcəsində özünü hissediləcək dərəcədə göstərdi. Minimum əməkhaqqının 250 manata çatdırılmasından sonra Azərbaycan bu göstərici üzrə MDB-də ikinci sırada qərarlaşdı.**

**Onu da qeyd edək ki, sosial paketlə artan təkcə minimum əməkhaqqı və pensiya deyildi. Eyni zamanda, müavinətlərin və təqaüdlərin artırılması əlilliyi olan 300 min şəxsi, 500 min məcburi köçkünü, 100 mindən çox tələbəni, ümumilikdə 1,3 milyon insanı əhatə etdi. Ən əsası, bu addımlar aztəminatlı təbəqəni əhatə etməklə yanaşı, həmin kateqoriyaya aid insanların sosial durumunu əhəmiyyətli dərəcədə yaxşılaşdırdı.**

**Pensiyadan danışarkən onu da qeyd etmək lazımdır ki, Prezidentin digər təşəbbüsü sosial sığorta sahəsində inqilabi irəliləyişi təmin etdi. Belə ki, 2006--2018-ci illərdə sığortaya, hətta cüzi məbləğ ödəyənlərə belə 25 illik sığorta stajı hesablanır. İl ərzində pensiyaya çıxan vətəndaşların 80 faizi bundan yararlana bildi və bu davamlı olacaq.**

**Prezident İlham Əliyevin ölkəmizdə dayanıqlı sosial inkişafı təmin edən islahatlar proqramına uyğun olaraq bir tərəfdən əhalinin sosial müdafiəsinin gücləndirilməsi, sosial ödənişlərin, o cümlədən əmək haqqı, pensiya və müavinətlərin əhəmiyyətli dərəcədə artırılması üçün mühüm addımlar atılır. İmtiyazlı vətəndaşların mənzillə və avtomobillə təminatı da daxil olmaqla, mühüm sosial proqramlar xeyli genişləndirilir. Şəhid ailələrinə və müharibə əlillərinə ötən il nəzərdə tutulduğundan 3 dəfə çox olmaqla 626 mənzil təqdim edilibsə, 2019-cu ildə bundan 50 faiz çox olmaqla 934 mənzil və fərdi evin verilməsi işləri aparılır.** Əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahələri üzrə əhaliyə xidmətlərin keyfiyyətinin müasir əsaslar üzərində yüksəldilməsi təmin olunur. Xüsusilə, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST layihəsi bu vacib məqsədə nail olunmasına imkan verib. Bakıda və növbəti ildən etibarən regionlarda DOST mərkəzləri şəbəkəsi genişləndiriləcək.

Ölkədə, həmçinin prioritet fəaliyyət istiqaməti kimi reabilitasiya və sosial xidmət infrastrukturunun müasirləşdirilməsi və genişləndirilməsi işləri davam etdirilir. Prezident İlham Əliyevin 2 dekabr 2019-cu il tarixli sərəncamı ilə bir sıra sosial təyinatlı obyektlərin layihələndirilməsi, tikintisi, əsaslı təmiri, bərpa yolu ilə gücləndirilməsi və avadanlıqla təchizatı məqsədilə maliyyə vəsaitinin ayrılması bu sahədə işlərin uğurla davam etməsinə imkan yaradır. Sərəncam üç istiqaməti – tikintisi nəzərdə tutulan sosial təyinatlı obyektlərin layihələndirilməsini, onların tikintisini, sosial təyinatlı obyektlərdə əsaslı təmir və yenidənqurmanı, bu müəssisələrdə bərpa yolu ilə gücləndirməsi və avadanlıqla təchizat işlərinin aparılmasını nəzərdə tutur. Nəticə etibarilə sənəd müasir tələblərə uyğun yeni sosial xidmət və reabilitasiya müəssisələrinin istifadəyə verilməsinə, bu sahə üzrə infrastrukturun genişlənməsinə, ayrı-ayrı bölgələrdə də yeni bərpa mərkəzlərinin tikintisinə təminat verir.

Əhalinin rifahının yaxşılaşdırılması üçün təkcə əməkhaqqı, pensiya, müavinət və təqaüdlər artırılmır. Aztəminatlı təbəqənin dolanışığını təmin etmək məqsədilə onlar yeni layihəyə--özünüməşğulluq proqramından yararlanmağa dəvət edilirlər. Bu proqram əhalinin kasıblıqdan kiçik sahibkarlığa keçid yoludur. Dövlət Məşğulluq Xidməti tərəfindən özünüməşğulluq proqramına qoşulan və təlimlərdə iştirak edənlərin sayı artmaqdadır. Həmin şəxslərə təlimləri uğurla başa çatdırdıqdan və biznes planlarını müdafiə edəndən sonra aktivlərin verilməsi prosesi davam edir. Qeyd edək ki, bu il artıq 9513 nəfər işaxtaran və işsiz vətəndaş özünüməşğulluq proqramına cəlb edilib.

Ölkədə aparılan sosial müdafiə tədbirləri Beynəlxalq qurumların da diqqətini cəlb edir. Beynəlxalq Əmək Təşkilatının (BƏT) "Azərbaycanın kənd və şəhər ərazilərində layiqli əməyin və inklüziv iqtisadi artımın təşviqi vasitəsilə Dayanıqlı İnkişaf Məqsədlərinin icrasında artan tərəqqi" adlı layihəsinin nəticələrinə görə, BMT-nin "2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyi"nin icrası sahəsində Azərbaycanın əldə etdiyi nümunəvi uğurlar Prezident İlham Əliyevin həyata keçirdiyi dövlət siyasətinin bəhrəsidir. Əlamətdar haldır ki, Azərbaycan hökumətinin həyata keçirdiyi sosial siyasət əsasən 2 məqsədə -- əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin artırılmasına və əhalinin həyat şəraitinin yüksəldilməsinə xidmət edir.

Ölkəmizdə Məşğulluq Strategiyasının hazırlanmasına, özünüməşğulluq proqramının tərtib olunmasına, Sosial və İqtisadi məsələlər üzrə Üçtərəfli Komissiyanın yaradılmasına BƏT-in dəstəyi, Azərbaycanın regionda BƏT üçün uğur nümunəsi olduğu məlumdur. Gənclərin məşğulluğu, özünüməşğulluq və Üçtərəfli Komissiyanın yaradılması ilə bağlı ölkəmizin təcrübəsi BƏT tərəfindən müsbət təcrübələr kimi digər ölkələrə tövsiyə edilib. BƏT-lə əməkdaşlığımızda geniş potensiala malik olan mühüm bir sahə milli təcrübələrimizin ekspertlərimiz vasitəsilə digər ölkələrə ixrac olunmasıdır.

BMT-nin "2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyi"nin icrası ilə bağlı Azərbaycan BƏT tərəfindən region üzrə fokus ölkə seçilib. BƏT-in baş direktoru ötən il mayın 20-22-də ölkəmizə səfəri zamanı Azərbaycanda aparılan sosial-iqtisadi islahatları yüksək qiymətləndirib. Ölkəmizin beynəlxalq aləmdəki daim artan nüfuzu, son illərdə əldə edilmiş sosial-iqtisadi uğurları, həyata keçirilən səmərəli praktiki əməkdaşlıq sayəsində Azərbaycan (hökumət qrupu üzrə) BƏT-ə üzvlüyü ərzində ilk dəfə 2017-ci ilin iyun ayında BƏT-in İdarə Heyətinin üzvü seçilib.

Qeyd etmək yerinə düşər ki, ölkəmizdə əmək münasibətlərinin rəsmiləşdirilməsi məsələlərinə də xüsusi önəm verilir. İşəgötürənlərin əmək qanunvericiliyi, onun tətbiqi ilə bağlı məlumatlandırılması məqsədi daşıyan tədbirlərdə işəgötürən və işçi arasında əmək münasibətlərinin rəsmiləşdirilməsi proseduru barədə məlumatlar verilir. Vətəndaşlar əmək müqaviləsinin bağlanması, şərtlərinin dəyişdirilməsi, eləcə də, xitam verilməsinin əsasları və qaydaları barədə ətraflı məlumatlandırılırlar. İşəgötürənlərin qeyri-rəsmi məşğulluq hallarının qarşısının alınması sahəsində səylərini gücləndirmələrinin vacibliyi onların diqqətinə çatdırılır.

***Zərifə BƏŞİRQIZI,***
***"Xalq qəzeti"***